# Üzümçülük kənd təsərrüfatının prioritet sahəsidir

**Bu il yanvar ayının 10-da Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə həsr edilmiş yığıncağında ölkə Prezidenti İlham Əliyev üzümçülüyün kənd təsərrüfatının mühüm sahələrindən biri olduğunu vurğulayıb. Müasir şəraitdə Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafında əsas məqsəd ilk növbədə ümummilli lider Heydər Əliyevin rəhbərliyi dövründə ölkədə baş verən iqtisadi irəliləyişlərin əsas inkişaf parametrləri üzərində bu günün innovativ standartlar səviyyəsində həyata keçirilə bilən texnologiyaların tətbiqi yolu ilə daha yüksək nəticələrə nail olmaqdan ibarətdir.**

Prezidentimizin üzüm və şərab istehsalında olan çatışmazlıqlar haqqında söylədiyi fikirlər hər şeydən əvvəl onunla bağlıdır ki, Azərbaycanda elmi-texniki istehsal bazasının yaradılması, ayrı-ayrı sahələrdə ixrac prosesinin genişləndirilməsi, yeni rəqabətə davamlı məhsulların istehsalı, mövcud tələblərə uyğun qabaqcıl texnologiyaların istifadəsi, ən vacib aqrar sahələri üzrə müvafiq parkların, intellektual mülkiyyət obyektlərinin və s. yaradılması zamanın, yeni bu günün mühüm məsələləridir.

Elm, işçi qüvvəsi, istehsal prosesi və bazar arasında möhkəm əlaqələrin yaradılması güclü iqtisadiyyatın əsas istiqamətlərindəndir. Digər sahələrdə olduğu kimi, kənd təsərrüfatında da yüksək səmərə verə bilən sahələrdən söz düşəndə, təbii ki, yaxın keçmişdə bütün sovetlər ölkəsində iqtisadiyyatın əsas sahələrindən olan üzümçülük-şərabçılıq sahəsi yada düşür. Ancaq bu yazıda ölkədə keçmişdə nə əldə edilmişdir deyil, nə əldə edə bilərik sualı bu gün daha aktual məzmun daşıdığından, biz bu cəhətə daha çox önəm vermək istərdik. Bu gün üzümçülük və şərabçılığın regionlar üzrə ixtisaslaşmasını və aqrar sənaye inteqrasiyası yönündə daha çox intensivləşdirilməsini qeyri-neft istehsalı sahəsinin sürətli inkişafına gətirib çıxaran faydalı bir mənbə hesab edirik.

Prezidentimizin dediyi kimi, bu gün dünya üzümçülüyü tarixində prioritet təşkil edən Fransa, ABŞ, İspaniya, İtaliya, Türkiyə, Rusiya və s. ölkələrlə bir sırada duran Azərbaycan öz ənənələri ilə fərqlənən qədim üzümçülük diyarıdır. Məlumdur ki, keçmiş Sovetlər İttifaqına daxil olan ölkələr içərisində üzüm-şərab istehsalının həcminə görə Azərbaycan Rusiyadan sonra ikinci ölkə idi. Yəni üzümçülük Azərbaycanın əksər regionlarında kənd təsərrüfatının aparıcı sahəsinə çevrilmişdir və ölkə iqtisadiyyatında mühüm yer tuturdu. Bununla belə, üzümçülüyün böyük ərazilərdə, xüsusilə ixtisaslaşdırılmış dövlət təsərrüfatlarında sürətli inkişafı keçən əsrin 70-ci illərindən başlamışdır. O vaxtlar respublikada cəmi üzüm sahəsi 122 min hektar təşkil edirdi. Ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə gəlişi ilə yeni üzümçülük təsərrüfatlarının yaradılması bütün respublika ərazisinin demək olar ki, əksər rayonlarını əhatə etdi. Çox keçmədən yeni üzümlüklərin salınmasına başlanıldı. Artıq 5 il ərzində, yəni 1975-ci ildə üzümlüklərin əkin sahəsi 178,1 min hektara, 1982-ci ildə 220,8 min hektara, ümumi məhsul istehsalı isə 1964 min tona çatdırıldı.

Təbiət üzümçülüyün böyük ərazilərdə inkişaf etdirilməsinə nail olmaq üçün Azərbaycana hər cür torpaq-iqlim şəraiti bəxş etmişdir. Üzümçülük regionlarının dəniz səviyyəsindən yüksək olan ərazilərində iqlim şəraiti, fəal temperaturun cəmi, bitki örtüyü və bir çox göstəricilərin kəskin dəyişkənliyi ölkədə müxtəlif növ üzüm və şərab istehsalına əlverişli şərait yaratmışdır. Məhz ona görədir ki, yaxın keçmişdə respublikada yüz min tondan çox tez, orta və gec yetişən süfrə üzümü, alkoqolsuz içkilər və yeyinti məhsulları, desert şərabı, on adda konyak və altı adda şampan şərabı istehsal edilirdi. Yəni ölkəmizdə çox saylı texniki və süfrə üzüm sortları, o cümlədən kifayət qədər Təbrizi, Mərəndi, Ağ Xəlili, Şəfeyi, Qara şanı, Ağ şanı, Əsgəri, Sarıgilə kimi süfrə sortları, Mədrəsə, Bayanşirə, Həməşərə, Mələyi və s. kimi texniki sortları yaradılmışdır.

Araşdırmalar göstərir ki, hazırda üzümçülüyün əsas istiqamətlərindən biri ilk növbədə üzüm sahələrinin bölgələrdə genişləndirilməsi, texniki və süfrə sortlarının əkininin bir neçə dəfə artırılmasına nail olmaqdır. Bundan sonra mövcud sahələrdə məhsuldarlığın artırılmasına çalışmaq və bunun üçün isə sahənin təbii-iqtisadi zonalar üzrə ixtisaslaşdırılmasına və becərilən sortun genotip xüsusiyyətlərini nəzərə alaraq müvafiq aqrotexnikanın tətbiqinə çalışmaq lazımdır.

Etiraf etməliyik ki, üzümçülükdə hələlik arzuedilən səviyyəyə çatmamışıq. Çünki keçən illərin təcrübəsindən bilirik ki, məsələn, 1980-ci illərdə Cəlilabad rayonu üzrə orta illik üzüm istehsalı hər hektardan 85-100 sentner, Şamaxıda isə 80-90 sentner təşkil edirdi. İndiki məhsuldarlıq isə şübhəsiz ki, Abşeron, İsmayıllı kimi ənənəvi üzümçülük rayonları üçün daha yüksək ola bilər.

Ölkə başçısı cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu dinamik strategiya çərçivəsində respublikada bütün istehsal sahələri ilə yanaşı üzümçülük və şərabçılığın müasir bazar iqtisadiyyatı səviyyəsində inkişaf etdirilməsi bu sahənin inkişafına yenidən baxılması vəzifəsini qarşıya qoyur. Məhz bu sahələrin elmi əsaslarla inkişaf etdirilməsi qarşıda mühüm perspektivlər aça bilər. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı çərçivəsində 2012-2020-ci illərdə ölkədə 50 min hektar yeni üzüm bağının salınması, habelə 2020-ci ildə respublikada üzüm istehsalının təxminən 455 min tona çatdırılması nəzərdə tutulmuşdur.

Bu cəhətdən kənd təsərrüfatı naziri Heydər Əsədovun "Respublika" qəzetində dərc edilən "Heydər Əliyev və aqrar islahatların Azərbaycan modeli" başlığı altında yazısı maraq dairəmizi daha da genişləndirdi.

Nazir göstərir ki, dünya təcrübəsində kənd təsərrüfatının dövlət tənzimlənməsinin ən mühüm alətlərindən biri kimi çıxış edən bazar intervensiyası sisteminin qurulması da aktuallaşmışdır. Bu baxımdan dövlət sifarişi ilə ərzaq məhsullarının yerli istehsalçılardan satınalınmasının mərkəzləşdirilmiş qaydada həyata keçirilməsini təmin etmək məqsədilə ərzaq məhsullarının tədarükü və təchizatı ASC-nin yaradılması, həm də kənd təsərrüfatı məhsulları bazarına intervensiya tədbirlərinin həyata keçirilməsi baxımından mühüm tənzimləmə aləti kimi çıxış mühüm əhəmiyyət kəsb edir.



Sosial-iqtisadi tələblərə cavab verə bilən müasir kənd təsərrüfatı müəssisələrinin təşkilinin daha da təkmilləşdirilməsi xüsusi önəm daşıyır. Bu mənada üzümçülük sahəsinin ənənəvi mövqeyə çıxarılmasının kənd təsərrüfatının ümumi yüksəlişində mühüm rol oynayacağı danılmazdır. Təcrübədə təsdiq olunmuşdur ki, üzümçülük və şərabçılıq sahəsi vahid aqro-sənaye kompleksi olaraq müstəqil bir idarəetmə orqanına möhtacdır. Üzüm bitkisinin bioloji xüsusiyyətlərindən, yerli torpaq-iqlim şəraitindən, tətbiq edilən kompleks aqrotexniki tədbirlərdən və digər becərmə sistemlərindən asılı olaraq bütün ilboyu görülən işlərdə fəhlə və mütəxəssislərdən yüksək dərəcədə peşəkarlıq tələb olunur. Odur ki, burada aqrar sənaye xarakterli işlərin mürəkkəbliyi, o cümlədən əmək şəraitinin təşkili, texniki təchizat, bazar münasibətlərinin tənzimlənməsi və s. idarəetmənin daha təkmil forması, yəni müstəqil bir qurumun fəaliyyəti şəraitində bəhrə verə bilər. Üzümçülüyün və emal sənayesinin yüksək innovativ texnologiya əsasında inkişafı bunu tələb edir. Belə qurumların (məs. elm-istehsalat MMC, aqro-sənaye Assosiasiyası və s.) yaradılması istehsal, satış, idxal-ixrac proseslərinin vahid tənzimləyicisi kimi daha çox iş görər və mənfəət əldə edə bilər.

"Respublika" qəzetinin yanvar nömrələrinin birində 90-cı illərdə üzümçülük-şərabçılıq ET İnstitutunun bazasında "Şəfa" elm-istehsalat birliyinin yaradılması barədə qısa bir məlumat yazılmışdır. Ancaq bu gün məsələyə yenidən qayıtmağın zəruri olduğunu nəzərə alaraq aidiyyəti dövlət qurumları tərəfindən nəzər yetiriləcəyinə ümid edib Azərbaycanda ilk dəfə yaradılan "Şəfa" elm-istehsalat birliyinin (Azərbaycan Respublikası NS-nin 04.08.1987-ci il tarixli, 276 saylı qərarı) 90-cı ildə hakimiyyətə gələn respublika rəhbərliyi tərəfindən ləğv edilməsinin əsassız olduğunu qeyd etmək istərdik. Həmin qərara əsasən respublikada birinci olaraq üzümçülük və şərabçılıq "Şəfa" elm-istehsalat birliyinin yaradılması Üzümçülük və Şərabçılıq İnstitutunun həyatında böyük fəallıq və elmi-praktiki işlərin daha yüksək templə aparılmasına münbit şərait yaratdı. Lakin o vaxtkı respublika hakimiyyət orqanları nədənsə bu quruma qərəzli mövqedən yanaşdılar və onun fəaliyyət göstərməsini rəva bilmədilər.

Qeyd etmək yerinə düşərdi ki, hələ keçmiş Sovetlər İttifaqı dövründə və son vaxtlarda mətbuatda qeyd edildiyi kimi, Kənd Kooperasiyası və ya elm istehsalat birlikləri formasında torpağı və texnikanı, habelə əməyin birlikdə təşkili sayəsində, əmək məhsuldarlığını yüksəltmək və maya dəyərini aşağı salmaq elmin son nailiyyətlərini istehsalata daha sürətlə tətbiq etmək yolu ilə yüksək nəticələr əldə etmək mümkündür. Bu mənada xatırlatdığımız elm istehsalat birliyi dövrün tələbi ilə çox mükəmməl elmi əsaslarla işləyə bilən bir təsərrüfat qurumu kimi fəaliyyət göstərə bilər. Bu gün də fikrimizcə, belə bir elm-istehsalat qurumunun ərsəyə gəlməsi müasir şəraitdə üzüm-şərab istehsalında idarəetmə üsullarından ən faydalısı ola bilərdi.

Müvafiq qida elmi mərkəzlərinin məlumatına əsasən aparılan hesablamalara görə, Azərbaycanda adam başına istehlak edilən orta illik üzüm məhsulu Avropa ölkələrinə nisbətdə 2-3 dəfə, şərab isə 10 dəfədən azdır. Bu gün Azərbaycanda istehsal edilən üzüm (cəmi 150-160 min ton) məhsulunun təzə halda istifadə edilən hissəsi 25-30 min tondan çox deyil. Hansı ki, ölkə əhalisinin təzə halda və qurudulmuş üzüm məhsuluna orta illik tələbatı daha çoxdur. O cümlədən təkcə Bakı şəhəri əhalisinin təzə üzümlə təmin edilməsi üçün istifadə müddəti də nəzərə alınarsa 25-30 min ton süfrə üzümü istehsal edilməlidir.

Yuxarıda qeyd etdiyimiz elm-istehsalat birliyinin qarşısında qoyulan vəzifə ondan ibarətdir ki, 3-5 il ərzində respublika əhalisini ilboyu təzə süfrə üzümü ilə tam təmin etmək, bölgələrdə və eləcə də Abşeronda süfrə üzümü sahələrinin ən azı 40-50 min hektara çatdırılmasını və sahənin elmi əsaslarla inkişaf etdirilməsinə nail olmaq olar. Bizə belə gəlir ki, bu məsələnin həllinə cənab Prezidentin məlum çıxışı kontekstində baxılarsa, onun nə dərəcədə vacib olduğu üzə çıxar.

Bu, həm də bütün il boyu emal müəssisələrində çalışan 50-60 min kənd əhalisinin daimi yeni iş yerinin açılması olardı. Düşünürük ki, yuxarıda göstərilən bir quruma 40-50 min hektar yeni sahə təhkim edilərsə müasir texnologiya şəraitində çox da yüksək olmayan, əslində hər hektardan orta məhsuldarlıq həddində (məsələn, 100 sentner) daha çox məhsul əldə etmək mümkün olar.

Bütün yuxarıda deyilənlərdən sonra qənaətimiz belədir ki, regionların sosial-iqtisadi inkişafı sahəsində Prezidentimiz möhtərəm İlham Əliyevin uğurla həyata keçirdiyi sosial-iqtisadi proqramlar içərisində neftdən asılılığın aradan qaldırılması yönündə mühüm yer tutan məsələlərdən biri də məhz kənd təsərrüfatında aparılan ardıcıl islahatlardır. Hazırda istehsalın təkmilləşməsi vasitəsilə nisbətən iri, daha geniş ərazi və istehsal sahələrini əhatə edən birlik və ya kooperasiyaların, onların sənaye əsasında inkişafının, bütövlükdə kənd təsərrüfatında intensiv əməyin təşkilinin başlanmasına münbit şərait yaranmışdır.

Respublikada özülü ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutunun əməkdaşları üzümçülük və şərabçılığın elmi əsaslarla inkişaf etdirilməsinə, sahənin seleksiya, aqrotexnika, yeni daha məhsuldar sortların rayonlaşdırılması, onların təbii iqlim şəraitinə uyğun seçilib yerləşdirilməsinin əsas prinsipləri və özəl təsərrüfatlara təqdim edilməsi işlərinə cəlb edilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Yevlax şəhərində keçirilən qeyri-neft ixracatçılarının respublika müşavirəsindəki çıxışında dövlətimizin başçısı üzümçülüyün inkişafına xüsusi önəm verərək qeyd etmişdir ki, üzümçülük üçün bizim gözəl təbii şəraitimiz var. Biz indi üzümçülüyü bərpa etməliyik və bərpa edirik. Yeni üzüm bağları salınmalıdır. Prezident əlavə olaraq üzümçülük və şərabçılığın inkişafı ilə bağlı əlavə təkliflərin hazırlanacağını da vurğulamışdır. Bu cəhətdən yuxarıda göstərilən elmi-istehsalat qurumu haqqında xatırlatdığımız məsələnin də nəzərə alınacağına və üzüm-şərab istehsalında məqsədyönlü təklif kimi qiymətləndiriləcəyinə ümid edirik.

İnstitutun maddi-texniki bazasının yeniləşdirilməsini respublika Kənd Təsərrüfatı Nazirliyinin elmə göstərdiyi dəstək kimi qiymətləndirən alimlərimiz öz elmi axtarışlarını daha əzmlə davam etdirmək və Prezidentimizin həyata keçirdiyi məqsədyönlü strategiya çərçivəsində Azərbaycanda üzümçülüyün və onun emal sənayesinin müasir bazar iqtisadiyyatı səviyyəsində inkişaf etdirilməsinin təxirəsalınmaz bir vəzifə olduğunu dərk edərək elmin potensialından yetərincə istifadə etməklə bu sahənin inkişafına nail olmaq əzmindədirlər.

**Tariyel PƏNAHOV,**
**ÜŞETİ-nin direktoru, Beynəlxalq Üzümçülük və Şərabçılıq Akademiyasının həqiqi üzvü,**
**Rəhman VERDİYEV,**
**iqtisad elmləri namizədi, dosent.**